# "Azərbaycançılığı dərk edən gənclərimiz çoxdur"

*Adalet.az Millət vəkili Nizami Cəfərovun müsahibəsini təqdim edir:*

**-Son vaxtlar ölkədə bır sıra aksiyalar baş verdi. Lakin sizin millət vəkili olduğunuz Ağstafa rayonunda sakitlikdir. Ümumiyyətlə bu hadisələri necə dəyərləndirirsiniz?**

-Ağstafa faktiki olaraq yeni yaradılmış rayondur. Belə demək mümkündürsə, müstəqilliyimizin bəhrəsidir. Amma vaxtı ilə bu adda bir rayon olub ki, o, Qazaxa birləşib, daha sonra yenidən ondan ayrılıb. Ağstafanın çox geniş ərazisi var, təbii şəraiti zəngindir. Əhalisi çox mehriban və ziyalı təbəqəni təmsil edir. Qazax mahalına məxsus olan xüsusiyyətlər var burda. İstər ədəbiyyata olsun, istər incəsənətə, yaradıcılığa böyük maraq var. Bunlar istər-istəməz regionun insanlarının xarakterini müəyyənləşdirir. Çox güclü dövlətçilik təfəkkürü olan regiondur və orada çox güclü ictimai-siyası-ideoloji şüuru olan bir cəmiyyət yaşayır. Mən artıq 4-cü dəfədir Ağstafadan millət vəkili seçilirəm. Təbii ki, mən də çalışıram ki, ağstafalıların əhval-ruhiyyəsini əks etdirəm, müəyyən problemlərin həlli ilə məşğul olam. Bəzən olur ki, Ağstafadan hər hansı bir sakin deyəndə ki, mənim filan problemim var, mən cavab verirəm ki, onsuz da bunu bilirəm. Mən Ağstafa sakinlərinin problemlərini hiss edirəm. Ağstafa gözümüzün qabağında müasir şəhərə çevrildi. Mənim üçün Ağstafa çox əzizdir. Əgər bir problem varsa, deməli, həmin problemin həlli də var.

Adətən cənab prezident müxtəlif regionlara səfər edəndə həmin rayonlarda təsərrüfat məsələləri müzakirə olunur. Ancaq Ağstafaya gələndə buranın mədəniyyət, ədəbiyyat və incəsənəti ilə maraqlanır. Ölkə başçısının həmin səfəri də çox yaddaqalan bir səfər olmuşdu.

**-Son baş verən hadisələrdən dolayı kənd təsərrüfatı məsələsi gündəmə gətirilib. Ağstafada kənd təsərrüfatını inkişaf etdirmək üçün təbii şərait var. Yerli əhalinin bu sahəyə marağı hansı səviyyədədir?**

-Əvvəlcə onu deyim ki, Ağstafa ziyalı rayonu olmaqla yanaşı, həm də təsərrüfat regionudur. Demək olar ki, əsas gəliri kənd təsərrüfatındandır. Rayonun iqtisadi inkişafında sənaye müəssisələrinin rolu bir o qədər də nəzərə çarpmasa da, əsas potensial kənd təsərrüfatı üzərindədir. Ağstafada kənd təsərrüfatı ilə məşğuliyyət keçən əsrdən yüksək səviyyədə olub. Buranın əhalisi şəxsi təsərrüfatında əldə etdiyi məhsulu səhər bazara aparıb satırdı, əldə etdiyi gəlirlə özünə lazım olan məhsulu alırdı və evinə qayıdırdı. Yəni hər kəs öz təsərrüfatının məhsullarını satırdı. Lakin SSRİ dağıldıqdan sonra kənd təsərrüfatına xeyli dərəcədə ziyan dəydi. Bütün bunlar tarixi prosesin tərkib hissəsi olduğu üçün təbii ki, yenidən o dövrə qayıtmaq mümkün deyil. Lakin müasir texnoloji imkanların hesabına daha perspektivli təsərrüfatı inkişaf etdirmək mümkündür. Bu gün camaat əksərən özü, öz ailəsi üçün çalışır. Onu da qeyd edim ki, son illərdə Ağstafaya qoyulan investisiyaların çəkisi artıb. Düşünürəm ki, təmsil olunduğum rayonda xüsusi gərginlik yoxdur. Bəzi problemlər var ki, onlar da qısa bir zamanda inanıram ki, öz həllini tapacaq.

**-Həm millət vəkili, həm də YAP-ın üzvü olaraq hansı sahələrdə daha çox məşğul olursunuz?**

-Daha çox təhsil, elm, mədəniyyətlə maraqlandığım üçün bu sahələrdə aparılan siyasətlər də mənə tanışdır. Bu məsələlərə həm akademik səviyyədə, həm də ictimai-siyasi səviyyədə müəyyən qədər müdaxilə edirəm. Amma o yerdə ki, mən peşəkar deyiləm, mənim söz deməyimə əlbəttə elə bir əsas yoxdur. Uzun müddət Azərbaycançılıq ideologiyası ilə bağlı araşdırmalar aparmışam, fikirlər söyləmişəm. Yalnız məhdud dairədə deyil, bu fikirlərim ictimai sahədə də özünü göstərir.

**-Azərbaycançılıq ideologiyası gənc nəsillərə lazımınca çatdırılırmı?**

-Birinci növbədə dövlət o ideologiyanı özünün ana xətti hesab edirsə və siyasətini o istiqamətdə davam edirsə, bu, avtomatik gənclərin şüuruna da birbaşa təsir edir. Dəfələrlə ölkə başçımız da qeyd edib ki, bizim ideologiyamız azərbaycançılıq ideologiyasıdır. Azərbaycançılıq ideologiyası deyərkən burada bir sıra səviyyələr də vardır. Təbii ki, gənclərimizin onu mükəmməl səviyyədə mənimsəməsi çətindir. Bunu bizim ziyalılarımız da deyir. Azərbaycançılıq ideologiyasının tarixində müxtəlif mübahisələr də olub. Lakin onu qeyd edim ki, hazırkı dövrdə azərbaycançılığı dərk edən gənclərimiz çoxdur. Gənclərimiz müxtəlif dövlətlərlə, müxtəlif xalqlarla müqayisədə özünün azərbaycanlı olduğunu dərk edir. Bu kifayət qədər zəngin bir məsələdir və bu sahədə kifayət qədə araşdırmalar da aparılıb.



**-Azərbaycançılıq ideologiyasını araşdırarkən müxtəlif ölkələrin tarixi mənbələrindən istifadə olunubmu?**

-Təbii ki, Azərbaycan tarixi deyərkən ilk növbədə Azərbaycan xalqının tarixini vurğulamalıyıq, Azərbaycan xalqının tarixini öyrənərkən azərbaycanlılar özlərində nə düşünüblər, hansı tarixi yaradıblar, bunun üzərində düşünürük. Amma ümumilikdə Azərbaycan tarixi dünya tarixindən təcrid olunmuş tarix deyil. Biz müxtəlif döyüşlər keçmişik, qalib gəlmişik, məğlub olmuşuq, bunlar hamısı bizim tarixi təfəkkürümüzə çöküb və müasir düşüncəmizi müəyyənləşdirir. Ona görə də, əlbəttə bütün mənbələr öyrənilir.

**-Prezident də bu məsələlərlə bağlı, xüsusilə multikulturalizmlə bağlı sənədlər imzalayıb, bunu necə dəyərləndirirsiniz?**

-Böyük mütəfəkkir olaraq ölkə başçısı İlham Əliyev bu tədqiqatları ona görə nəzərə aldı ki, tolerantlıq və multikulturalizm bu xalqın təbiətindədir. Ona görə də bunu dövlət siyasəti kimi təqdim etdi. Ölkədə multikulturalizm, çox mədəniyyətlilik, o cümlədən müxtəlif mədəniyyətlərarası dialoq mühiti olmasaydı, təbii ki, bu sahədə bu cür inamla işlər görülməzdi. Bu sahədə dövlət siyasəti müəyyən təcrübəyə də malikdir. Azərbaycan prezidenti həm Azərbaycan xalqı üçün, həm də dünya üçün lazım olan belə bir düşüncə aksiyası təşkil etdi. İlham Əliyevin rəhbərlik illəri hesab edirəm ki, azərbaycançılıq ideologiyasının tarixində, təkamülündə yeni bir dövrdür. Buna İlham Əliyev dövrü adlandıra bilərəm.

**-Azərbaycanın dünyada tolerant ölkə kimi tanınması üçün başqa hansı addımlar atılmalıdır?**

-Hazırda dünyanın müxtəlif mədəni-siyasi mərkəzlərində Azərbaycanın bu sahədə mövqeyi ilə bağlı məsələlər müzakirə olunur. Eyni zamanda dünyanın çoxlu sayda mədəniyyət dialoqları, sivilizasiya dialoqları Azərbaycanda keçirilir. Bunlar əslində Azərbaycan miqyasında ölkələrin görə bilməyəcəyi bir işdir ki, dövlət adamları, mədəniyyət və elm xadimləri Azərbaycana dəvət olunur və burada genişmiqyaslı diskussiyalar aparılır. Əslində söhbət Azərbaycanı tolerant ölkə kimi tanıtmaqdan yox, Azərbaycanı necə var elə tanıtmaqdan gedir. Dünyanın bir neçə alimləri var ki, Azərbaycanı araşdırır, öyrənir.

**-Ortaq türk dilinin yaradılması ilə bağlı hansı addımlar atılır?**

Bu işlər bir müddət çox emosional bir şəkildə idi, amma bu gün artıq kifayət qədər təmkinlə aparılır. Türk dünyası ölkələrinin əlaqələrinin səviyyəsində hər bir türk dili müstəqil şəkildə inkişaf edir və türk dilli dövlətlər arasında əlaqədə günü-gündən güclənir. Bu mövqedə ilk növbədə Türkiyə türkcəsi təqdim olunur. Türkiyə türkcəsinin müəyyən imkanları var. Dilin işlənməsi tarixi dövlət dili olaraq kifayət qədər davamlı, ardıcıldır. Bir məsələ var ki, bir vaxtlar süni bir türkcə yaratmaq meyli vardı ki, indi bu hala rast gəlinmir. Geniş miqyasda götürsək, üç türk dili var: Oğuz dili, qıpçaq dili və karluq dili. Bu dillər bir-birini başa düşür. Bu mənada biz onu həmişə türkdilli dövlətlərin parlament assambleyalarında görürük. Orada hərə öz dilində danışır. Amma Türkiyə türkləri danışanda biz tərcüməyə qulaq asmırıq. Türklər də bizə qulaq asanda tərcümədən istifadə etmir.

**-Müstəqil televiziyalarda nümayiş olunan mədəniyyət verilişləri ilə bağlı nə deyə bilərsiniz?**

-Mədəniyyətlə bağlı nümayiş olunan verilişlərin vaxtı ikən xeyli problemləri vardı. İndi isə əksinə, inkişaf görünür. Televiziyalarda gərək yaxşı nümunələr olsun. Xüsusilə əyləncəli verilişlərdə görürsən ki, intellekt səviyyəsi aşağıdır.

**-MTRŞ ilə ANS arasındakı mübahisə ilə bağlı hansı fikirləriniz var...**

Ümumiyyətlə o cür məsələlərdə mən Teleradio şurasının tərəfini tuturam. Çünki Teleradio Şurası ölkə televiziya və radio məkanında olan bütün neqativ və pozitiv halları işıqlandıran bir qurumdur. Ona görə də, düşünürəm ki, bütün hallarda MTRŞ haqlıdır. MTRŞ dünya praktikasında, o cümlədən Azərbaycanın mövcud vəziyyətində çıxış edir. O cümlədən demokratik prinsiplərə riayət edərək fəaliyyət göstərən bir dövlət qurumudur. Hər halda mən düşünürəm ki, MTRŞ çox hallarda haqlı mövqedədir.

**-Orfoqrafiya lüğəti ilə bağlı müəyyən müzakirələr gündəmə gəldi və orada bir sıra prinsiplərin pozulduğu qeyd olunmuşdu. Bu yöndə fikirləriniz nələrdən ibarətdir.**

-Bizim orfoqrafiya qaydalarımız böyük tarixə malikdir. Xırda nöqsanlar ola bilər, amma deyə bilmərik ki, lüğətlərimizdə böyük nöqsanlar var. Sadəcə bizim problemimiz ondan ibarətdir ki, çox hallarda orfoqrafiya lüğətimizi geniş müzakirə olunmadan çap etdiririk. Belə olan halda sizin dediyiniz kimi prinsiplər pozulur. Orfoqrafiya lüğətləri müxtəlif miqyaslı olmalıdır. Məsələn, çox işlənən sözlərin lüğəti olmalıdır, arxaik sözlərin lüğətləri olmalıdır.

**-Milli Məclisdə təmsil olunduğunuz komitənin yaradılması hansı zərurətdən doğur və komitənin iş mexanizmi nədən ibarətdir?**

-Elə düşünürəm ki, ictimai təşkilatların fəaliyyəti ilə bağlı, həm də dini qurumlarla bağlı bu komitənin yaradılması zəruri idi. Ölkədə dindən istifadə etmək halları, dini münasibətlərdə, yaxud dini ibadətlərdə yeniləşdirmə və müasirləşdirmə aparmaq cəhdləri var. Lakin bu məsələlərdə ən əsası insan münasibətləridir ki, bəzən heç bir qanunla məhdudlaşdırıla bilməz. Mən inanıram ki, yaxın gələcəkdə biz bu komitənin tərkibində uğurlu işlər görəcəyik.

**Rüfət Soltan**